| | | |
|---|---|---|
| **Ümumi məlumat** | **Fənnin adı, kodu və kreditlərin sayı** | AZH150, Azərbaycan tarixi, 6 AKTS |
| | **Departament** | Tarix və Arxeologiya departamenti |
| | **Proqram (bakalavr, magistr)** | Bakalavr |
| | **Tədris semestri** | 2025/26-ci tədris ilinin yaz semestri |
| | **Fənni tədris edən müəllim (lər)** | PhD. Rüxsarə Quliyeva |
| | **E-mail:** | ruxsaraguliyeva@gmail.com<br>rukhsare.guliyeva@khazar.org |
| | **Telefon:** | |
| | **Mühazirə otağı/Cədvəl** | |
| | **Məsləhət saatları** | Tələbələrlə razılaşdırılan vaxtlarda |
| **Prerekvizitlər** | **Yoxdur** | |
| **Tədris dili** | **Azərbaycan dili** | |
| **Fənnin növü (məcburi, seçmə)** | **Məcburi** | |
| **Dərsliklər və əlavə ədəbiyyat** | **Əsas dərsliklər:**<br>1. Azərbaycan Respublikasının tarixi: 1991-2021: II cild: 2003-2021. Musa Qasımlı. Bakı: BDU-nun nəşriyyatı, 2021<br>2. Azərbaycan tarixi (ən qədim dövrlərdən zəmanəmizədək). İradə Nuriyeva. Bakı: Elm və təhsil, 2019.<br>3. Azərbaycan tarixi (ən qədim zamanlardan XXI əsrin ilk onilliklərinədək). Həsən Qəniyev. Bakı, “Elm və Təhsil” 2019.<br>4. Azərbaycan tarixi. Red. Mehman Abdullayaev. Bakı, Bakı Universiteti, 2014<br>5. Azərbaycan tarixi (uzaq keçmişdən 1870-ci illərə qədər) red. prof.Süleyman Əliyarlı. Bakı, 2009.<br>6. Azərbaycan tarixi, I cild (Ən qədim zamanlardan XX əsrədək). Z. Bünyadovun və Y. Yusifovun redaktəsilə. Bakı, 2005.<br>7. XX əsr Azərbaycan tarixi, II cild, Red. Y.B. Yusifov və T.T. Vəliyev.Bakı, 2004.<br><br>**Əlavə dərsliklər və elmi monoqrafiyalar:**<br><br>1. Nesib Nesibli. Azerbaycan tarihi: millet, devle ve siyaset. Ankara, 2019<br>2. Azərbaycan Respublikasının tarixi (1991-2021-ci illər). I-II cild. Bakı, Elm və təhsil, 2022<br>3. Azərbaycan tarixi üzrə qaynaqlar, red. S.Əliyarlı Bakı, 2007.<br>4. Solmaz Qaşqay. Manna dövləti. Bakı 1993<br>5. Fəridə Məmmədova. Azərbaycanın siyasi tarixi və tarixi coğrafiyası, Bakı, 1993 (IV fəsil, §1-2). | |

| | |
|---|---|
| | 6. Ziya Bünyadov. Azərbaycan VII-IX əsrlərdə, Bakı, 2004 ( III fəsil, § 2, §8;V fəsil § 2).<br>7. Oqtay Əfəndiyev. Azərbaycan Səfəvilər dövləti, Bakı, 1993 (I fəsil, II fəsil s.33-35, s.46-49).<br>8. Tadeuş Svyatoçovski. Rusiya və Azərbaycan . Bakı, Xəzər Universiteti, 2000.<br>C.Həsənli. İkinci dünya müharibəsi illərində Azərbaycan hərbi, siyasi və diplomatik münasibətlərdə (1939-1945) Bakı, 2015. |
| **Kursun vebsaytı** | https://www.ebooks.az/category_historyaz.html<br>https://ebooks.az/category_historyaz.html<br>www.azerbaijan.az;<br>www.aztarix.azeriblog.com;<br>www.azerbaycanli.org;<br>www.history.az/Kitabxana/Kitablar<br>www.menazerbaycanliyam.wordpress.com/tarix-kitablari /;<br>www.kitabyurdu.org/kitab/tarix /;<br>https://www.preslib.az/az/elibrary/ebook/nqB2uHV |
| **Kursun təsviri** | Azərbaycan tarixi kursu qədim dövrlərdən müasir dövrədək vətənimizin tarixi inkişafını əhatə edir. Kurs çərçivəsində tələbələr Azərbaycanın erkən dövlətçilik mərhələlərindən, orta əsrlərdəki siyasi və mədəni həyatından başlayaraq XIX–XX əsrlərdəki neft sənayesinin inkişafı, milli azadlıq hərəkatları, Sovet dövründə baş vermiş sosial-siyasi və mədəni dəyişikliklər və müasir müstəqillik dövrünə qədər bütün dövrləri öyrənirlər. |
| **Kursun məqsədləri** | Azərbaycan tarixi kursunun məqsədi tələbələrdə vətənimizin tarixi prosesləri haqqında sistemli və elmi əsaslı biliklərin formalaşdırılmasıdır. Kurs vasitəsilə tələbələr:<br><br>1. Azərbaycan tarixinin qədim dövrlərdən müasir dövrə qədərki mərhələlərini anlamaq və qiymətləndirmək;<br>2. Tarixi hadisələri müasir elmi tədqiqatlar və yeni faktlar kontekstində analiz etmək;<br>3. Tarixi mənbələrdən istifadə edərək, tarixi prosesləri müqayisəli və kritik şəkildə qiymətləndirmək;<br>4. Fənn haqqında ümumi anlayışlarını möhkəmləndirərək, dünyagörüşlərini genişləndirmək və vətənpərvərlik hissini inkişaf etdirmək;<br>5. Tarixin qaranlıq və az öyrənilmiş səhifələrinə diqqət yetirməklə analitik düşünmə qabiliyyətlərini artırmaq.<br><br>Kurs tələbələrdə tarix elminə maraq yaratmaq, onların tədqiqat bacarıqlarını və elmi təfəkkürünü inkişaf etdirmək məqsədini daşıyır. |

<table>
<tr><td rowspan="1">Tədrisin (öyrənmənin) nəticələri</td><td colspan="3">Kursu uğurla bitirdikdən sonra tələbələr:<br><br>1. Azərbaycan tarixinin qədim dövrlərdən müasir dövrə qədərki əsas mərhələlərini təsnifatlı və sistemli şəkildə izah edə biləcəklər;<br>2. Tarixi hadisələri elmi mənbələr və faktlar əsasında təhlil edib müqayisəli qiymətləndirə biləcəklər;<br>3. Tarixi proseslərin siyasi, iqtisadi və mədəni aspektlərini anlamaqla analitik düşünmə qabiliyyətlərini inkişaf etdirəcəklər;<br>4. Tarixin az öyrənilmiş və mübahisəli səhifələrinə diqqət yetirərək öz tədqiqat bacarıqlarını gücləndirəcəklər;<br>5. Tarixi bilikləri digər sosial və humanitar elmlərlə əlaqələndirərək geniş dünyagörüşünü formalaşdıra biləcəklər;<br>6. Tarixi hadisələrə obyektiv yanaşma nümayiş etdirərək, kritik təhlil və elmi arqumentasiya bacarıqlarını inkişaf etdirəcəklər. Vətən tarixinə, mədəniyyətinə, mənəvi dəyərlərinə sevgi və hörmət hissini daha da artıracaq və vətənpərvərlik ruhunu daha dayüksəldəcəkdir!<br>7. Azərbaycanın mədəni-tarixi inkişaf mərhələlərinin araşdırılması və Azərbaycanın müasir dövrdə dünya miqyasında rolu və yerinin müəyyənləşdirilməsi</td></tr>
<tr><td rowspan="4">Tədris metodları</td><td colspan="2">Məşğələ</td><td>x</td></tr>
<tr><td colspan="2">Qrup müzakirəsi</td><td>x</td></tr>
<tr><td colspan="2">Praktiki tapşırıqlar</td><td>x</td></tr>
<tr><td colspan="2">Praktiki məsələnin təhlili</td><td>x</td></tr>
<tr><td rowspan="8">Qiymətləndirmə</td><td>Komponentləri</td><td>Tarix/son müddət</td><td>Faiz (%)</td></tr>
<tr><td>Yoxlama (quiz)</td><td>Aralıq və final imtahanından əvvəl</td><td>10</td></tr>
<tr><td>Tapşırıq</td><td>Müəllimin təyin etdiyi gündə</td><td>10</td></tr>
<tr><td>Kurs işi (Təqdimat)</td><td>Müəllimin təyin etdiyi gündə</td><td>10</td></tr>
<tr><td>Aktivlik</td><td>Semestr boyu</td><td>5</td></tr>
<tr><td>Aralıq imtahanı</td><td>Aprel</td><td>30</td></tr>
<tr><td>Final imtahanı</td><td>İyun</td><td>35</td></tr>
<tr><td>Yekun</td><td></td><td>100</td></tr>
<tr><td>Qaydalar (Tədris siyasəti və davranış)</td><td colspan="3">Dərsin təşkili<br>-Fənnə aid ümumi xarakterli məlumatlar mühazirə zamanı tələbələrə çatdırılacaqdır.<br>-Yeni mövzu əyani vasitələrin (PPT xəritə, foto və video fayllar) nümayişi ilə izah ediləcəkdir.<br>-Aralıq və final imtahanları öncəsi tələbələrin mənimsəmə səviyyələri (Quiz)</td></tr>
</table>

| | |
|---|---|
| | yoxlanılacaqdır<br>**Kurs işi (Təqdimat)**<br>Kurs işinin əsas məqsədi tələbələrə sərbəst yazı, tədqiqat qabiliyyətinin öyrədilməsi, tariximizin ən qədim zamanlardan bu günə kimi dövrü ilə bağlı istənilən mövzu ətrafında müstəqil şəkildə hazırlıq qabiliyyətini aşılamaqdır. Mövzular müstəqil şəkildə və ya müəllimin təqdimatı üzrə hazırlanaraq prezentasiya şəklində təqdim edilir. Prezentasiya vaxtı, sonunda müzakirə də daxil olmaqla 15-dəqiqədən artıq olmamalıdır. Tələbələr tapşırıqları yerinə yetirərkən plagiarizmə yol verməməli, əldə etdikləri məlumatların mənbələrinə istinad etməli və istinadları göstərməlidir. Tələbələrin qiymətləndirmə üçün müəllimə təqdim etdiyi tapşırıqlarda 25% və daha artıq Plagiarizm halları (müvafiq istinadların mənbəyinin göstərilməsi halları istisna olmaqla) aşkarlandığı zaman iş sıfırlanır.<br>**Yoxlama işi**<br>Müəllimə və dekanlığa qabaqcadan məlumat verilən səbəblərdən yoxlama işində iştirak etməyən tələbə yoxlama işini növbəti həftədə yaza bilər.<br>**İmtahanlar**<br>Aralıq imtahanı 1-7-ci mövzuları əhatə edir. Final İmtahanı 8-15-ci mövzuları əhatə edir.<br>Aralıq və yekun imtahan mövzuları tələbələrə imtahandan öncə verilir. Aralıq imtahanının sualları yekun imtahanında təkrarlanmırlar.<br>**İmtahan qaydaları**<br>Tələbənin imtahanda iştirakı və ya imtahanın buraxılması ilə bağlı bütün məsələlər fakültə rəhbərliyi tərəfindən həll olunur. İmtahanda iştirak etməmə yalnız dekanlığın icazəsi ilə mümkündür. İctimai fəaliyyətlə əlaqədar imtahanlardan yayınma hallarına yol verilmir. Son imtahanda sualların əksəriyyəti aralıq imtahandan sonra keçirilmiş materialların əsasında tərtib olunur.<br>**Fənni bitirmək qaydası**<br>Universitetin qaydalarına müvafiq olaraq kursu bitirmək üçün ümumi müvəffəqiyyət faizi 60% və yuxarı hesab edilir. Kəsiri olan tələbə bu fənni növbəti semestr və ya növbəti il təkrarən götürə bilər.<br>**Tələbələrin davranış qaydaları**<br>Dərs zamanı dərs prosesini və etik qaydaları pozmağa, həmçinin, tələbələr arasında dərsdənkənar müzakirələrə və telefondan istifadəyə icazə verilmir. Online dərsi yalnız müəllim özü başlada bilər, tələbələr Microsoft Teams platfomasında cədvəl üzrə təyin olunmuş dərsi başlada bilməzlər. |

**Cədvəl (dəyişdirilə bilər)**

| Həftə | Tarix (planlaşdırılacaq) | Fənnin mövzuları | Dərslik/Tapşırıqlar |
|---|---|---|---|
| 1. | --.--.26 | **Azərbaycanda ibtidai cəmiyyət və qədim Azərbaycan dövlətləri**<br>• Azərbaycanda icma cəmiyyətinin başlıca | Dərsliklər və əlavə ədəbiyyat/əsas dərsliklər: 1. s.10-5; |

| | | | |
|---|---|---|---|
| | | problemləri<br>• Manna dövləti: ərazisi, əhalisi, siyasi tarixi və mədəniyyəti<br>• Azərbaycan Midiya və Əhəməni imperiyalarının tərkibində<br>• Atropatena dövləti: ərazisi, əhalisi, siyasi tarixi və mədəniyyəti<br>• Albaniya dövləti: ərazisi, əhalisi, siyasi tarixi və mədəniyyəti | 2. s. 21, 38; 3. s. 5 |
| **2.** | **--.--.26** | **Azərbaycan erkən orta əsrlərdə (III-IX əsrlər)**<br>• Azərbaycan III-VII əsrlərdə<br>• Azərbaycan Xilafətin tərkibində<br>• İslam dininin yayılması və onun tarixi əhəmiyyəti<br>• Ərəb əsarətinə qarşı azadlıq mübarizəsi.Xürrəmilik Babək.<br>• Azərbaycan xalqının təşəkkül prosesi | Dərsliklər və əlavə ədəbiyyat/əsas dərsliklər: 1. s. 39; 2. s. 55; 3. s. 30 |
| **3.** | **--.--.26** | **Azərbaycan intibah dövründə (IX-XIII əsrin əvvəlləri)**<br>• IX-XI əsr Azərbaycan tarixinin başlıca problemləri<br>• Oğuzlar, onların qurduğu cəmiyyətlər və onların özünəməxsus xüsusiyyətləri<br>• Səlcuq türkləri və Azərbaycan<br>• Azərbaycan Atabəylər dövləti<br>• Azərbaycan İntibah mədəniyyəti | Dərsliklər və əlavə ədəbiyyat/əsas dərsliklər: 1. s. 72; 2. s. 81-99; 3. s. 61 |
| **4.** | **--.--.26** | **Azərbaycan XIII-XV əsrlərdə**<br>• Azərbaycanda monqol əsarəti<br>• Hülakilər dövləti<br>• Azərbaycan Qara Yusif Baharlı və onun varisləri dövründə<br>• Azərbaycan Bayandurlu sülaləsinin hakimiyyəti dövründə<br>• Şirvanşahlar dövləti<br>• Səfəvilərin Ərdəbil hakimliyi<br>• XIII-XV əsrlər Azərbaycan mədəniyyəti | Dərsliklər və əlavə ədəbiyyat/əsas dərsliklər: 1. s. 98; 2. s. 117, 94, 110 |
| **5.** | **--.--.26** | **Səfəvilər dövləti**<br>• Səfəvilər dövlətinin yaranmasını şərtləndirən amillər<br>• Qızılbaş ideologiyası**.** I Şah İsmayıl<br>• Səfəvi-Osmanlı müharibələri və onun nəticələri | Dərsliklər və əlavə ədəbiyyat/əsas dərsliklər: 1. s. 135; 2. s. 139; 3. s. 120 |

| | | | |
|---|---|---|---|
| | | • Şah Abbasın islahatları və onun nəticələri<br>• XVII əsrdə Səfəvilər dövlətinin daxili və beynəlxalq vəziyyəti<br>• XVI-XVII əsrlərdə Azərbaycan mədəniyyəti | |
| **6.** | **--.--.26** | **XVIII əsrin birinci yarısında Azərbaycan torpaqlarında ictimai və siyasi vəziyyət**<br>• XVIII əsrin əvvəllərində Səfəvi dövlətinin tənəzzülü<br>• Azərbaycanın beynəlxalq rəqabət meydanına çevrilməsi<br>• I Pyotorun Xəzəryanı bölgələri işğal etməsi<br>• Şirvan bölgəsinin siyasi və demoqrafik vəziyyəti<br>• Azərbaycan Nadir şahın imperiyası tərkibində | Dərsliklər və əlavə ədəbiyyat/əsas dərsliklər: 1. s. 176; 2. s. 197; 3. s. 142 |
| **7** | **--.--.26** | **Azərbaycan xanlıqları**<br>• Azərbaycan ərazisində xanlıqların yaranması. Şimali və Cənubi Azərbaycan xanlıqları<br>• Azərbaycanın birləşdirilməsi uğrunda mübarizə və onun nəticələri<br>• Xanlıqların daxili və xarici siyasəti. Qacarın yürüşləri<br>• Azərbaycan xanlıqlarının sosial – iqtisadi vəziyyəti. İnzibati-idarəetmə sistemi<br>• XVIII əsrdə Azərbaycan mədəniyyəti | Dərsliklər və əlavə ədəbiyyat/əsas dərsliklər: 1. s. 193; 2. s. 208; 3. s. 153 |
| **Aralıq imtahanı (I-VII mövzu)** | | | |
| **8** | **--.--.26** | **Azərbaycan XIX əsrdə**<br>• XVIII-əsrin sonu- XIX əsrin əvvəllərində Azərbaycanın daxili və beynəlxalq vəziyyəti<br>• Rusiya-Azərbaycan müharibəsi. İşğal və müqavilələr<br>• I Rusiya-İran müharibəsi. Gülüstan müqaviləsi.<br>• Gülüstan müqaviləsindən sonrakı dövrdə Azərbaycan beynəlxalq münasibətlərdə<br>• II Rusiya-İran müharibəsi. Türkmənçay müqaviləsi | Dərsliklər və əlavə ədəbiyyat/əsas dərsliklər: 1. s. 222; 2. s. 225-296; 3. s. 172 |
| **9** | **--.--.26** | **Azərbaycan XX əsrin ilk onilliklərində (1901-1918)**<br>• XX əsrin əvvəllərində Azərbaycanda ictimai – siyasi vəziyyət<br>• Azərbaycan milli azadlıq hərəkatının II dövrü və onun əsas xüsusiyyətləri<br>• 1905-1906-cı illərdə erməni–müsəlman münaqişəsi<br>• Azərbaycanda siyasi partiyaların və ictimai hərəkatların yaranması | Dərsliklər və əlavə ədəbiyyat/əsas dərsliklər: 1. s. 295; 2. s. 302; 3. s. 210 |

| | | | |
|---|---|---|---|
| | | • Azərbaycan I Dünya müharibəsi illərində<br>• 1917-1918-ci ilin əvvəllərində Şimali Azərbaycanda ictimai-siyasi vəziyyət. 1918-ci il mart soyqırımı<br>• XX əsrin əvvəllərində Azərbaycan mədəniyyəti. Maarif və elm<br>• Azərbaycan deputatları Rusiya Dövlət Dumalarında<br>• Cənubi Azərbaycan 1905-1911-ci illər İran inqilabı dövründə | |
| **10** | **--.--.26** | **Azərbaycan Xalq Cümhuriyyətinin yaranması və ilk addımları (1918-1920)**<br>• Zaqafqaziya Seyminin süqutu.<br>• AzərbaycanCümhuriyyətinin yaradılması. İstiqlal bəyannaməsi<br>• Batum konfransının Azərbaycan üçün nəticələri. Batum müqavilələri<br>• 1918-ci ilin iyun böhranı və nəticələri<br>• Bakı XKS-nın Gəncəyə hücum planı və onun iflası<br>• Bakı XKS-nin süqutu.“ Sentrokaspi” diktaturası<br>• Qafqaz İslam Ordusu”. Bakının azad edilməsi | Dərsliklər və əlavə ədəbiyyat/əsas dərsliklər: 1. s. 341; 2. s. 331; 3. s. 250 |
| **11** | **--.--.26** | **Azərbaycan XX əsrin 20-30-cu illərində**<br>• 1920-ci ilin aprel işğalı və Azərbaycanda kommunist hakimiyyətinin qurulması.Sovet hakimiyyətinə qarşı müqavimətherəkatı<br>• Azərbaycanda həyata keçirilən birtərəfli sənayeləşdirmə və kollektivləşdirmə siyasəti, onun nəticələri<br>• Formal müstəqilliyn ləğvi və respublikanınərazi bütövlüyünə qəsd. DQMV və Naxçıvan MSSR-in yaranması<br>• Azərbaycanda sosialist yenidənqurmaları,onların sosial-iqtisadi və siyasi nəticələri. Kütləvi repressiyalar<br>• Azərbaycan SSR-də mədəni quruculuq | Dərsliklər və əlavə ədəbiyyat/əsas dərsliklər: 1. s. 371; 2. s. 381; 3. s. 268 |
| **12** | **--.--.26** | **Azərbaycan II dünya müharibəsi dövründə (1939-1945-ci illər)**<br>• II Dünya müharibəsinin başlanması və müharibə edən dövlətlərin Azərbaycana dair planları<br>• Azərbaycan döyüşçüləri döyüş cəbhələrində, antifaşist müqavimət və partizan hərəkatlarında | Dərsliklər və əlavə ədəbiyyat/əsas dərsliklər: 1. s. 406; 2. s. 406; 3. s. 298 |

| | | | |
|---|---|---|---|
| | | • Faşizm üzərində qələbədə Bakı neftinin Rolu<br>• Cənubi Azərbaycan II Dünya müharibəsi dövründə | |
| **13** | **--.--.26** | **Müharibədən sonra Azərbaycanın sosial-iqtisadi və siyasi inkişafı (1945-1991-ci illər)**<br>• XX əsrin 40-60-cı illərində Azərbaycanın sosial-iqtisadi və siyasi vəziyyəti<br>• Azərbaycanlıların Ermənistandan-tarixi-etnik torpaqlarından kütləvi surətdə deportasiyası<br>• Azərbaycanda SSR XX əsrin 70-80-ci illərində.<br>• "Yenidənqurma" şəraitində millimünasibətlərin kəskinləşməsi<br>• Güney Azərbaycanı müharibədən sonrakı dövrdə | Dərsliklər və əlavə ədəbiyyat/əsas dərsliklər: 1. s. 436; 2. s. 436; 3. s. 315 |
| **14** | **--.--.26** | **Müstəqil Azərbaycan respublikası: Dövlət müstəqilliyinin bərpa olunması və onun möhkəmləndirilməsi uğrunda mübarizə.(1991- 1995-ci illər)**<br>• Qondarma "Dağlıq Qarabağ" məsələsi və onun Azərbaycanın ictimai-siyasi durumuna təsiri<br>• Dövlət müstəqilliyinin bərpa edilməsi. Azərbaycan müstəqilliyin ilk illərində<br>• Milli qurtuluş. Heydər Əliyevin yenidən Azərbaycan Respublikasının yeni neft strategiyası.<br>• "Əsrin müqaviləsinin" imzalanması | Dərsliklər və əlavə ədəbiyyat/əsas dərsliklər: 1. s. 471; 2. s. 447; 3. s. 331 |
| **15** | **--.--.26** | **Müstəqil Azərbaycan respublikası: Azərbaycan Respublikası XX əsrin 90-cı illərinin ikinci yarısı-XXI əsrin ilk onilliklərində.**<br>• Müstəqil Azərbaycan Respublikası Konstitusiyasının qəbul edilməsi<br>• Azərbaycanda sosial-iqtisadi və mədəni dirçəliş<br>• Azərbaycan intibahının yeni mərhələsi<br>• Müstəqil Azərbaycan Respublikası dünya birliyində<br>• 2020-ci ilin Vətən müharibəsi: səbəblər, hərbi əməliyyatlar, nəticələr<br>• Azərbaycanın diplomatik uğurları və beynəlxalq münasibətlər | Dərsliklər və əlavə ədəbiyyat/əsas dərsliklər: 1. s. 496; 2. s. 455; 3. s. 361 |
| **Final imtahanı (VIII-XV mövzu)** | | | |

**MÖVZULAR**

1. Albaniyada xristianlıq: yayılması və tənəzzülü
2. Alban əlifbası: mübahisələr və mülahizələr
3. XX əsrin əvvəllərində ermənilərin azərbaycanlılara qarşı mövqeləri: səbəblər və nəticə
4. XIX-XX əsrin əvvəlində Azərbaycan şəhərlərinin bədii istiqaməti
5. Dmitri Mendeleyev və Azərbaycanın neft sənayesi
6. Portret janrı və Mirzə Qədim İrəvanı
7. XIX əsrdə Azərbaycanda qeyri-neft sənayesi
8. Milli Azadlıq hərəkatının başlanması və istiqamətləri (1875-1918)
9. Birinci dünya müharibəsinin başa çatması dövründə Azərbaycan uğrunda böyük dövlətlərin diplomatik mübarizəsi
10. Azərbaycanın ərazi bütövlüyü uğrunda siyasi mübarizə (1918-1919)
11. Azərbaycan siyasi mühacirəti: siyasi təşkilatların və dərnəklərin yaranması
12. Azərbaycan mühacirəti müharibə illərində
13. Azərbaycan Milli Legionu
14. Strateji enerji layihələri: TANAP və TAP
15. İkinci Dünya müharibəsində Bakının geosiyasi mövqeyinin müharibə edəndövlətlərin planlarına göstərdiyi təsir
16. Azərbaycanda Sovet işğalı həyata keçirildikdən sonra istiqlal hərəkatı:Antisovet İldırım təşkilatı
17. İman Mustafayev: Kommunist rəhbərin milli siyasəti.
18. Qarabağ müharibəsi: 12-15 iyul döyüşləri
19. “Böyük təmizləmə və ya bolşevik terroru” – siyasi repressiyalar
20. A.L.J.İ.R.–Vətən Xainləri Qadınlarının Akmola Düşərgəsi (Акмолинский лагерь жён изменников Родины)
21. E.ə. I əsrdə Ön Asiyada cərəyan edən siyasi proseslər və Albaniya
22. Şirvanşahlar dövlətinin süqutunun siyasi əhəmiyyəti
23. Nadir şahın dini siyasəti
24. Cümhuriyyət tələbələri
25. Şəki xanı Hacı Çələbinin tarixi portreti
26. Azərbaycan – coğrafi istilahdan siyasi istilaha doğru
27. Xosrov bəy Sultanov – Azərbaycanın ilk hərbi Naziri
28. Erkən orta əsrlərdə Albaniyanın siyasi coğrafiyası
29. Azərbaycanda Sovet hakimiyyəti qurulduqdan sonra itirilmiş ərazilər
30. Brest-Litovsk sülh müqaviləsi və Azərbaycan
31. Qafqaz İslam Ordusu: Osmanlı İmperiyasının Qafqaz siyasəti
32. Osmanlı idarəçiliyindən sovet idarəçiliyinə qədər Naxçıvan (1918-1921).

33. Türkmənçay müqaviləsindən sonra Şimali Azərbaycanın ərazi bütövlüyünə edilmiş qəsdlər
34. Ermənilərin Azərbaycan torpaqlarında dövlət yaratmaq səyləri
35. Azərbaycan tarixində soyqırımı problemi.
36. Azərbaycan tarixində deportasiya problemi
37. 20 yanvar faciəsini doğuran daxili və xarici səbəblər.
38. 44 günlük Vətən müharibəsindən sonra Azərbaycan və Ermənistan arasında keçirilən görüşlər.
39. Post-münaqişə dövründə 10 Noyabr Bəyanatı ilə 8 Avqust Bəyannaməsi arasında keçid
40. 8 Avqust 2025-ci il Bəyannaməsinin Cənubi Qafqazda təhlükəsizlik arxitekturasının formalaşmasına təsiri
41. 10 Noyabr 2020-ci il Bəyanatı və 8 Avqust 2025-ci il Bəyannaməsinin müqayisəli təhlili